# AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANLARI



**Məmmədov Aqil Səməd oğlu**

30 iyul 1969-cu ildə Qubadlı rayonunda anadan olub. 1984-cü ildə buradakı 2 nömrəli natamam orta məktəbi bitirib, təhsilini 126 nömrəli Xanlıq texniki-peşə məktəbində davam etdirib. Əmək fəaliyyətinə Qubadlı Rayon Avtomobil Nəqliyyatı İdarəsində başlayıb. 1987-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. Ordudan tərxis olunaraq Qubadlı rayon özünümüdafiə taboruna qoşulub. Ermənistanla sərhəd kəndlərin müdafiəsində "Qaranquş" kəşfiyyat dəstəsinin məğlubedilməz və ələkeçməz döyüşçüsü kimi tanınıb.

1992-ci il avqustun 7-də Laçın rayonunun Susuzdağ yüksəkliyinə nəzərdə tutulan hücumda onun kəşfiyyatçılar dəstəsi tapşırığı müvəffəqiyyətlə yerinə yetirib geri dönərkən gözlənilmədən mühasirəyə düşür. Dəstə düşmənin xeyli canlı qüvvəsini məhv edərək mühasirəni yarır. Aqil mina düşərək ağır yaralanır. Çoxlu qan itirdiyinə görə onun həyatını xilas etmək mümkün olmur.

Evli idi. Bir qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Qubadlı rayonundakı Şəhidlər xiyabanında dəfn edilib.

Təhsil aldığı 2 nömrəli orta məktəb onun adını daşıyır. Qubadlıda və Gəncədə adına küçələr var.



**Məmmədov Aytəkin İsrayıl oğlu**

29 may 1967-ci ildə Gədəbəy rayonunun Göyəli kəndində anadan olub. 1984-cü ildə orta təhsilini başa vurub. Həmin il texniki-peşə məktəbində rəngsaz peşəsinə yiyələnib. 1985-ci ildə hərbi xidmətə çağırılıb və Əfqanıstan müharibəsində iştirak edib. 1987-ci ildə hərbi qulluğunu başa vurduqdan sonra Bakıya gələrək tikinti idarəsində öz peşəsi üzrə işləməyə başlayıb.

Erməni yaraqlıları Azərbaycana qarşı elan olunmamış müharibəyə başlayanda silaha sarılıb Vətən torpağını düşməndən müdafiə etmək üçün 1991-ci ilin fevral ayında Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinə daxil olub.

1991-ci ilin aprel ayında Xanlar rayonunun erməni yaraqlıları tərəfindən hücuma məruz qalan kəndlərinə ezam olunub. Rayonun Quşçu kəndi uğrunda gedən döyüşdə həlak olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Göyəli kənd qəbiristanlığında dəfn edilib. Göyəli kənd orta məktəbi onun adını daşıyır. Büstü qoyulub.



**Məmmədov Eldar Harun oğlu**

10 yanvar 1968-ci ildə Bakı şəhərində anadan olub. 1982-ci ildə Bakıdakı 189 nömrəli orta məktəbin səkkizinci sinfini bitirib. 1982-1985-ci illərdə C.Naxçıvanski adına Hərbi Məktəbdə oxuyub. Hərbi biliyini artırmaq üçün 1985-1989-cu illərdə Riqadakı Qırmızıbayraqlı Ali Hərbi-Siyasi Məktəbdə təhsil alıb.

Erməni işğalçıları Azərbaycana hücuma başlayanda Vətənə qayıdıb, Sərhəd Qoşunlarında xidmətə başlayıb. 1993-cü ildə Sərhəd Qoşunları İdarəsinin könüllülərdən ibarət batalyonu tərkibində Ağdərə istiqamətində gedən döyüşlərin iştirakçısı olub. 1993-cü il fevralın 24-də Kasapet kəndi yaxınlığındakı yüksəkliyin müdafiəsində də düşmənə ağır zərbələr endirib. Həmin gün azğınlaşmış erməni quldurları bu yüksəkliyi ələ keçirmək üçün güclü hücuma keçiblər. Düşmən həmlələrinin qarşısı alınsa da, onlar qüvvə toplayaraq yüksəkliyi almaq üçün yenidən hücuma keçiblər. Bu döyüşdə əsl igidlik nümunəsi göstərərək, düşmənin xeyli canlı qüvvəsini məhv edib. Bu onun son döyüşü olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 11 dekabr 1994-cü il tarixli 247 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.



**Məmmədov Elşad Ramiz oğlu**

14 fevral 1975-ci ildə Göygöl (keçmiş Xanlar) rayonunun Haçaqaya kəndində anadan olub. 1990-cı ildə kənd natamam orta məktəbini bitirib, 99 saylı Göygöl texniki-peşə məktəbində təhsilini davam etdirib.

1993-cü ilin avqust ayında hərbi xidmətə çağırılıb, 6 ay hərbi təlim keçib. Sonra isə Qarabağa - döyüş bölgələrinə göndərilib. İlk sınağı Tərtər bölgəsində başlayıb. Ağdərə ərazisinin düşməndən təmizlənməsi uğrunda gedən qanlı döyüşlərdə rəşadətlə vuruşub.

Son döyüşü isə 1995-ci ilin mart ayında olub. 17 mart 1995-ci ildə dövlət çevrilişi cəhdinin qarşısının alınmasında rəşadət göstərərək dövlətçiliyimiz naminə şəhid olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Göygöl rayonunun Qırıqlı kəndində dəfn edilib.

Haçaqaya kənd ümumi orta məktəbi onun adını daşıyır. Daşkəsən yolu üstündə büstü qoyulub.



**Məmmədov Əli Hüseyn oğlu**

11 avqust 1955-ci ildə Naxçıvan şəhərində anadan olub. Orta təhsilini Bakı şəhər 225 nömrəli orta məktəbdə alıb. Sonra Bakı Poliqrafiya Məktəbini bitirib. 1975-ci ildə ordu sıralarına çağırılıb. 1978-ci ildə daxili işlər orqanlarında sıravi polis nəfəri kimi işə başlayıb. 1982-ci ildə Polis Akademiyasına daxil olub. 1984-cü uldə təhsilini müvəffəqiyyətlə başa vuraraq Bakının Binəqədi rayonunda sahə müvəkkili vəzifəsinə təyin edilib. 1987-ci ildə nümunəvi polis işçisi kimi onu Moskva Polis Akademiyasına ixtisasartırma kursuna göndəriblər. Sonra Binəqədi Rayon Polis İdarəsinin cinayət-axtarış şöbəsində baş əməliyyat müvəkkili vəzifəsində işləyib.

1992-ci ilin əvvəllərindən mütəmadi olaraq polis əməkdaşları ilə birlikdə cəbhə bölgələrinə göndərilib. 1992-ci il sentyabrın 24-də Laçın rayonuna ezam olunub, ermənilərin ələ keçirdiyi mühüm strateji əhəmiyyətə malik olan Qızartı yüksəkliyinin düşməndən azad edilməsi uğrunda oktyabrın 1-də başlanan qeyri-bərabər döyüşdə şücaət göstərib və qəhrəmancasına həlak olub.

Ailəli idi. İki övladı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Bakının Rəsulzadə qəsəbəsindəki küçələrdən biri onun adını daşıyır.



**Məmmədov Xanoğlan Sadıq oğlu**

1975-ci il fevralın 13-də Neftçala rayonunun Qaraqaşlı kəndində anadan olub. Səkkizinci sinfi bitirdikdən sonra təhsilini 104 saylı texniki-peşə məktəbində davam etdirib. 1993-cü il aprelin 13-də Neftçala Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Topçu kimi əvvəlcə Səngəçalda, sonra isə Çuxanlı, Pirəküşkül və Qaladakı hərbi hissələrdə xidmət keçib.

Sonra Murovdağa göndərilib. Bir neçə dəfə döyüşlərdə iştirak edib.

1995-ci il mart ayının 15-də OMON-çulardan ibarət bir qrup cinayətkar dəstə Ağstafa bölgəsində dövlət çevrilişinə cəhd göstərəndə cinayətkarların zərərsizləşdirilməsində yaxından iştirak edib və vətən yolunda şəhid olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Qaraqaşlı kəndində dəfn edilib.

Neftçala rayon Mədəniyyət evi onun adını daşıyır.



**Məmmədov İbrahim İsmayıl oğlu**

20 dekabr 1958-ci ildə Naxçıvan şəhərində anadan olub. 1976-cı ildə 3 nömrəli şəhər orta məktəbini bitirib. Bir il su-tikinti idarəsində işləyib, 1977-ci ildə hərbi xidmətə çağırılıb. 1979-cu ildə ordudan tərxis olunaraq Moskvaya gedib və avtomobil zavodunda əmək fəaliyyətinə başlayıb. Moskvada yaşayıb işləyə-işləyə 1993-cü ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinin qiyabi şöbəsini bitirib.

1990-cı ildə Bakıda törədilən yanvar faciəsinə qarşı öz haqq səsini qaldırıb, Azərbaycan həqiqətlərinin dünyaya yayılmasında fəal iştirak edib.

Xocalı faciəsindən sonra Bakıya gəlib. Azərbaycanda könüllü batalyonlardan birinin tərkibində döyüşlərə atılıb. 1993-cü ildə Milli Orduda bölük komandiri kimi fəaliyyətini davam etdirib. Çox keçmir ki, bölüyü ilə Kəlbəcərə göndərilir. Onun komandirliyi altında strateji əhəmiyyətli bir yüksəklik düşməndən azad edilib.

1994-cü il fevralın 16-da Kəlbəcərin strateji yüksəkliklərindən biri uğrunda gedən mübarizədə düşmənin 3 tankını və xeyli canlı qüvvəsini sıradan çıxarsa da son anda snayper gülləsinə tuş gəlib və aldığı yaradan şəhid olub.

Ailəli idi. İki övladı var.

Azərbaycan Respublikası Prezidentinin 20 iyun 1994-cü il tarixli 156 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Naxçıvan şəhərində Şəhidlər xiyabanında dəfn edilib.



**Məmmədov Kazım Ərşad oğlu**

1969-cu il oktyabrın 1-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub. 1986-cı ildə 1 nömrəli orta məktəbi bitirib. Həmin il Gəncə İnşaat Texnikumuna daxil olub.

1988-ci ildə ordu sıralarına çağırılıb. 1990-cı ildə ordudan tərxis olunduqdan sonra təhsilini davam etdirmək üçün Gəncəyə gəlib. 1991-ci ilin fevralında Cəbrayıl Rayon Daxili İşlər Şöbəsində post-patrul xidmətində işə başlayıb və tezliklə də cəbhəyə yollanıb.

15 noyabr 1991-ci ildə ermənilər böyük qüvvə ilə Xocavənd rayonunun Zamzur kəndinə hücuma keçib. Sayca üstün olan düşmən döyüşçülərimizi geri çəkilməyə məcbur edib. Mühasirə həlqəsi getdikcə daralanda boş evlərdən birində özünə mövqe seçib. Daha bir neçə yaraqlını məhv edib. Daha da azğınlaşan ermənilər binaya od vurublar. Burada qəhrəmancasına həlak olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Böyük Mərcanlı kəndində dəfn edilib.

Oxuduğu məktəbə adı verilib. Təhsil ocağının önündə büstü qoyulub. Adına 3 mükafat təsis edilib.



**Məmmədov Natiq Bəşir oğlu**

11 may 1975-ci ildə Zaqatala rayonunun Əli Bayramlı kəndində anadan olub. 1990-cı ildə kənd orta məktəbinin səkkizinci sinfini bitirib. Təhsilini Qax rayonundakı 3 nömrəli texniki-peşə məktəbində davam etdirib, mexanizator ixtisasına yiyələnib. Bir müddət "Dağıstan" kolxozunda çalışıb. 1993-cü il mayın 13-də Milli Ordu sıralarına çağırılıb, döyüş bölgələrinə göndərilib. Şərəfli cəbhə yolu Ağdam, Füzuli, Tərtər bölgələrindən keçib. Verilən bütün tapşırıqları layiqincə yerinə yetirib.

4 oktyabr 1994-cü ildə xüsusi təyinatlı hərbi hissənin əsgərlərini Gəncə şəhərinə gətiriblər. Bu vaxtlar şəhərdə özbaşınalıq hökm sürürdü. Silahlı dəstə dövlət çevrilişinə cəhd göstərib. Qiyamları yatırmaq üçün hərbi hissənin əsgərləri döyüş hazırlığına gətirilib. Həmin əməliyyatda iştirak edərkən dövlətçiliyimiz yolunda canını qurban verib.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 5 oktyabr 1994-cü il tarixli 215 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Zaqatala rayonunun Əli Bayramlı kəndində dəfn edilib.

Həmin kənddəki uşaq bağçası onun adını daşıyır.



**Məmmədov Nizami Murad oğlu**

12 yanvar 1958-ci ildə Xankəndi şəhərində anadan olub. Nizami Gəncəvi adına 4 nömrəli şəhər orta məktəbini bitirib. 1975-1977-ci illərdə İrkutsk vilayətində hərbi xidmətdə olub. Xankəndi Yaşıllaşdırma İdarəsində, sonra isə Qarabağ İpək Kombinatında çalışıb. Bakı Xüsusi Orta Milis Məktəbini bitirib. Xankəndi Şəhər Polis Şöbəsində növbətçi köməkçisi işləyib.

1989-cu il hadisələri getdikcə daha da kəskinləşəndə Şuşa şəhərinə köçməyə məcbur olub və fəaliyyətini Şuşa Rayon Polis Şöbəsində davam etdirib.

Malıbəyli, Daşaltı, Qaladərəsi əməliyyatlarında rəşadətlə vuruşub, torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə böyük ad-san qazanıb.

1992-ci il martın 29-da snayper gülləsinə tuş gələrək həlak olub.

Evli idi. Üç oğlu qalıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bərdə rayonunun Dəymədağlı kəndində dəfn edilib.

*Məlumatların hazırlanmasında "Heydər Əliyev və Azərbaycanın milli qəhrəmanları. Müqəddəs amal" kitabından istifadə olunub.*